# Yeni Azərbaycan Partiyası böyük və şərəfli yollarda

## YAP Qəbələ Rayon Təşkilatının konfransı

Yeni Azərbaycan Partiyası (YAP) Qəbələ Rayon Təşkilatının konfransı olmuşdur. Konfrans başlamazdan əvvəl rayon icra hakimiyyətninin başçısı Səbuhi Abdullayev, Azərbaycan Respublikası Milli Məclisinin üzvü Aqiyə Naxçıvanlı, YAP Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə, YAP Mərkəzi Aparatının məsul işçisi Emil Abasov,YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov və fəallar ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsi önünə tər qızıl gül dəstələri qoydular və dahi şəxsiyyətin əziz xatirəsini yad etdilər.










400 nəfər nümayəndə iştirak edən konfrans rayon mədəniyyət mərkəzində başladı. Konfransa sədrlik edən A. Ağasəfov tədbir iştirakçıları adından qonaqları salamladı. Onun təklifi ilə ümummilli lider Heydər Əliyevin və həyatdan köçən partiya üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Salonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndi. Konfransın katibliyi seçildi. Gündəlikdə iki məsələ dururdu:

1. YAP Qəbələ Rayon Təşkilatının VIII konfransından keçən bir il ərzində görülən işlərə dair hesabat.

2. Yeni Azərbaycan Partiyasının V qurultayına nümayəndələr seçilməsi barədə.

Çıxış üçün ilk söz rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə verildi. Sonra YAP Qəbələ Rayon Təşkilatının sədr müavini Elçin Tağıyev VIII konfransdan ötən dövr ərzində görülən işlər barədə hesabat məruzəsi ilə çıxış etdi. Məruzə ətrafında çıxışlar oldu (məruzə və çıxışlar ixtisarla dərc olunur).

Yeni Azərbaycan Partiyasının V qurultayına 5 nəfər nümayəndə seçildi. 8 nəfər partiya sıralarına yeni qəbul olunmuş gənclərə partiya vəsiqələri təqdim olundu.

Bununla da konfrans işini başa çatdırmış və salonda Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar**
**S. Umuyevindir.**

---

# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi ABDULLAYEVİN çıxışı

**Hörmətli qonaqlar!**
**Hörmətli siyasi həmfikirlər!**

Yeni Azərbaycan Partiyasının bütün üzvlərini Partiyanın Qəbələ Rayon Təşkilatının VIII Konfransı münasibətilə ürəkdən təbrik edir, rayon icra hakimiyyəti adından Sizi hərarətlə salamlayıram.

Azərbaycanın müasir tarixinin ən narahat və təlatümlü dövründə yaranan Yeni Azərbaycan Partiyası fəaliyyət göstərdiyi illər ərzində çox zəngin və şərəfli bir yol keçmiş, özünü ölkənin siyasi taleyində həlledici rol oynamaq qüdrətinə malik olan siyasi qüvvə kimi təsdiq etmişdir.

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda cəmiyyətimizin aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının məqsədyönlü siyasi fəaliyyəti nəticəsində ölkəmiz qısa zaman kəsiyində böyük tarixi uğurlar qazanmışdır. Tarix və zaman bir daha təsdiq etdi ki, Yeni Azərbaycan Partiyası vətənimiz üçün çox vacib bir tarixi məqamda və tarixi zərurətdən yaranmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyası yarandığı gündən böyük ictimai dəyərlərin daşıyıcısıdır. Heydər Əliyev ideyalarından qaynaqlanan Yeni Azərbaycan Partiyasının siyasi təcrübəsi onun bir siyasi partiya və güc mərkəzi olaraq varlığını inandırıcı şəkildə sübuta yetirmişdir. Siyasi mübarizələrlə və uğurlarla zəngin olan illərin təcrübəsi Yeni Azərbaycan Partiyasının ən real siyasi prespektivə malik olmasını təsdiq edir. Partiyamız tarixin onun üzərinə qoyduğu məsuliyyətə uyğun bütün gücünü xalqın inamını doğrultmağa yönəlmişdir.

YAP-ın qabaqcıl dəstələrindən olan partiyanın Qəbələ rayon təşkilatının 1993-cü ilin sentyabr ayında təsis yığıncağı keçirilərkən sıralarında 150 nəfər vardısa, bu gün artıq onun sıralarında 5470 nəfərdən çox partiya üzvü mövcuddur. Rayon təşkilatında üzvlərin əksəriyyəti gənclərdən və qadınlardan ibarətdir. Təşkilatda gənclərin YAP sıralarına qəbul olunması və onların siyasi fəallığının artırılması istiqamətində məqsədyönlü işlər aparılır. Rayonumuzda açılan yeni iş yerlərinə işçi qəbulu zamanı gənc nəslin nümayəndələrinə daha çox üstünlük verilir. Bu gün rayonumuzda gənclərə göstərilən qayğının yüksək nəticəsidir ki, partiya üzvlərinin 39 faizə qədəri gənclərdən ibarətdir. Təşkilatda gənclərlə yanaşı qadınların da siyasi fəallığının artırılması və onların dünyagörüşünün formalaşdırılması istiqamətində geniş tədbirlər həyata keçirilir. Partiya üzvlərinin 41 faizini qadınlar təşkil edir. YAP üzvü olan qadınlarımız rəhbər vəzifələrə irəli çəkilir, tutduqları vəzifələrdə onlar özlərini doğruldurlar. Təhsil, səhiyyə və mədəniyyət sahəsində belə fəal qadınlarımız daha çoxdur.

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının üzvləri və bütün qəbələlilər respublika Prezidenti, partiyamızın sədri cənab İlham Əliyevin yorulmaz və uğurlu siyasi fəaliyyətini ürəkdən bəyənir, dəstəkləyir və rayonumuzun ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Qəbələdə iqtisadiyyatın dinamik inkişafı, insanların məşğulluğunun təmin edilməsi və nəticədə adamların rifah halının yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər son vaxtlar daha da sürətlənmişdir.

Bu ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qəbələyə səfəri rayonumuzda genişmiqyaslı quruculuq-abadlıq işlərinə yeni nəfəs gətirmiş və görülmüş işlərə onun yüksək qiymət verməsi bizdə böyük ruh yüksəkliyi yaratmışdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində rayonumuzda böyük işlər görülmüşdür.

**(Ardı 3-cü səhifədə).**